**UOT 81**
**https://doi.org/10.59849/2311-8482.2024.3.154**

**VALİDƏ ABBASBƏYLİ***

# AZƏRBAYCAN DİLİNİN SÖZ YARADICILIĞINDA ONOMASTİK VAHİDLƏR VƏ ONLARIN KOQNİTİV-FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

*Linqvistikada koqnitiv yanaşma fövqəladə populyarlığını qoruyub saxlamaqda davam edir və dilçiliyin müxtəlif bölmələrinə koqnitiv yanaşma tədqooqatçıların marağını daha çox cəlb edir. İstənilən dil materialının ənənəvi linqvistik təhlil metodlarından istifadə etməklə tədqiqi spz zamanıar yetərsiz sayıldığı üçün koqnitiv dilçiliyin üsullarına müraciət son dönəmlərdə daha çox aktuallıq qazanmışdır.*

*Xüsusi adlara koqnitiv yanaşma da istisna deyil. Onomastika bir çox illərdir ki, ənənəvi dilçiliyin metodları ilə tədqiq olunur, öyrənilir. Lakin son illərdə onomastikaya koqnitiv yanaşmanı əks etdirən elmi-tədqiqat əsərlərinin sayı artmışdır. Alimlərin bu fəaliyyəti nəticəsində nominasiya və ad problemləri koqnitiv dilçiliyin metodları ilə öyrənilməyə başlamışdır. Alimlərin son tədqiqatları diskursda onomastik vahidlərin koqnitiv funksional yerləşdirilməsinin xüsusiyyətlərini göstərməklə yanaşı koqnitiv-funksional yanaşma çərçivəsində onomastik tədqiqatların perspektivlərini də müəyyən edir. Məqalədə Azərbaycan dilinin söz yaradıcılığında onomastik vahidlər və onlara koqnitiv yanaşmadan bəhs edilir.*

***Açar sözlər:*** söz yaradıcılığı, koqnitiv, onomastika, yanaşma, ənənəvi.

## Giriş

Koqnitiv yanaşma baxımından xüsusi adların tədqiqi informasiyanın konkret onimdə necə təqdim edildiyini və toplandığını, informasiyanın kodlaşdırılması və ötürülməsi üçün hansı koqnitiv mexanizmlərdən istifadə olunduğunu izləmək imkanı açır.

## Əsas təhlil

Bu məsələlərin tədqiqi ilə koqnitiv onomastika məşğul olur ki, bu da informasiya və biliklərin xüsusi adlarla ifadə, saxlanması və ötürülməsi yollarını öyrənən elmi istiqamət kimi müəyyən edilə bilər [11, s. 41].

Koqnitiv onomastikada üç əsas tədqiqat sahəsi var:

1) onomastik konseptlərin öyrənilməsi;

2) xüsusi adlarla obyektivləşdirilmiş konseptlərin öyrənilməsi. Məsələn, "müəllim" konsepti – Cəbiş müəllim; "vətən" konsepti-Dədə Qorqud; "məhəbbət konsepti"-Leyli və Məcmum və s.

3) onomastik nominasiyanın qurulmasının koqnitiv mexanizmlərinin öyrənilməsinə bunlar daxildir: koqnisiyanın xarakteri, informasiyanın abstraksiya və filtrasiyası, sadələşdirmə, assosiasiya, kombinasiya və informasiyanın yenidən təşkili və şərhi.

Koqnitiv onomastika qarşısına aşağıdakı vəzifələri qoyur: onimlərin qurulması modellərini müəyyən etmək və öyrənilməsi, onlarda informasiyanın birləşdirilməsinin xüsusiyyətləri, bu informasiyanın genişləndirilməsi, onun spesifikasiyası, informasiyanın müvafiq adda təcəssüm xüsusiyyətləri; onomastik lüğətdən istifadənin informasiyanın yenilənməsinin digər formalarına nisbətən üstünlüklərinin nəzərə alınması. Koqnitiv onomastikada onomastik məkan və onomastik konsept teminlərindən istifadə edilir.

Son illərə qədə Azərbaycan dilinin söz yaradıcılığı haqqında yazılan heç bir əsərdə söz yaradıcılığına koqnitiv yanaşmadan sözhbət belə gedə bilməzdi. Nəinki Azərbaycan dilinin söz yaradıcılığı, həmçinin digər eyni və müxtəlifsistemli dillərin söz yaradıcılığında koqnitiv dilçilikdən qətiyyən bəhs olunmurdu. Söz yaradıcılığı birbaşa xalqın tarixi, mədəniyyəti, keçirtdiyi həyat tərzi, dünyagörüşü, ətraf aləmə baxışı, təfəkkür tərzi ilə, mənsub olduğu dinlə bağlıdır. Adicə bir faktı bildirək ki, Azərbaycan dilinin toponomik sistemində "ərəb" komponentli onlarla oykonim və oronimə rast gəlinir: Ərəblər, Ərəbqubadlı, Ərəbuşağı, Ərəbmehdibəyli və s. Bütün bu yer adlarının mövcudluğu bizə onu deməyə haqq veriir ki, vaxtı ilə Azərbaycanda çoxlu sayda ərəblər yaşamışdır. Təbii ki, bu ərəblər Ərəb Xilafətinin ordusunun tərkibində Azərbaycana gəlmiş onların bir hissəsinin nəsilləri bu ərazilərdə məskunlaşmışdır. Deməli, onomastik vahidlərin yaranması birbaşa onun mənsub olduğu xalqın tarixi inkişaf dövrləri ilə sıx bağlıdır.

İnsan təfəkküründə canlandırmadığı, təsəvvürü olmayan əşyaya ad verə bilməz və yaxıd eyni

cinsli əşyanı fərqləndirmək üçün adlandırmaz. Adlandırılan hər bir canlı, məkan, yer və s. anlayışlar müəyyən konseptləri əks etdirir. Bədii əsərlərdə vı yaxın folklor materiallarında işlənib xalq arasında məşhurlaşan antroponimlər kimi toponimlər də səslənəndə, deyiləndə insanın göxü qarşısında hər hansı bir konsept canlanır. Məsələn Şuşa şəhəri bütün formalarda və üslublarda işləndikdə mədəniyyət konseptini əks etdirir. Hansı aspektdə işlənməsindən asılı olmayaraq Şuşa oykoniminin adının çəkilməsi bizim gözümüzün qarşısında mədəni dəyərlərimiz konseptini canlandırırı.

Bədii əsərlərdə istifadə olunan onomastik vahidlərin təhlili nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir:

1. Onomastik nominativ vahidlər "profil-baza" koqnitiv mexanizm əsasında qurulur.

Təsviri yenidən qurmaq üçün adresant şəxsiyyətin ən diqqətçəkən xüsusiyyətlərini müəyyənləşdirir, onların reallaşdırılmasını müvafiq adların mövcud daşıyıcılarından axtarır və onomastik nominasiyanı diskursiv kontekstə salmaqla bu xüsusiyyətləri profilləşdirir.

Beləliklə, bir tərəfdən qəhrəmanın bir spesifik xüsusiyyətinin təcrid olunmasına, digər tərəfdən isə təsvirin genişlənməsinə və dərinləşməsinə nail olunur, çünki vahidin bazasında qalan xüsusiyyətlər yoxa çıxmır, ancaq müəyyən dəyişikliklərə uğrayır.

2. Onomastik lüğətdən istifadə etməklə kompressiya, qiymətləndirmə, dil resurslarına qənaət funksiyalarına nail olunur. Bədii əsərlərdə istifadə olunan bütün adlar kompleksi qəhrəmanın çoxşaxəli obrazını qurmağa kömək edir, sanki canlandıraraq onu konnotativ potensialla tamamlayır.

Dilçiliyin elə sahələri var ki, onlar bir-birləri ilə inteqrasiya halında olurlar. Söz yaradıcılığı mənalı dil vahidlərində reallaşır. Onomastik vahid də dil vahididir. Apelyativ leksikadan fərqli olan onomastik leksika xüsusi isimlərdən ibarət olur. Apelyativ leksikada hansı sözyaratma prosesi gedirsə, xüsusi leksikada da o proses reallaşır. Dilçilikdə əsas sözyaratma üsulları bunlardır: sözyaratma, sözalma və konversiya. Apelyativ leksikada istifadə olunan fonetik yolla sözyaratma üsulu, leksik-semantik yolla sözyaratma üsulu, sintaktik yolla sözyaratma üsulu, kalka, reduplikasiya üsullarından onomastik leksikada da istifadə edilir. Əlbəttə ki, bütün bu üsulların onomastik vahidlərin söz yaradıcılığındakı rolu ənənəvi dilçiliyin obyektidir. Lakin bundan əlavə müasir dönəmdə dildəki sözyaratma prosesinə bir koqnitiv yanaşma da mövcuddur. "Koqnitivlik söz yaradıcılığına dildə sabitləşmiş insan təcrübəsi qatlarının, yəni dünya haqqında biliklərin əsasını təşkil edən anlayışların (konseptual kateqoriyaların) əksi kimi baxılır. Əsas konseptlər hərəkət, hal, əlamət, şəxs, predmet, yer, zaman və s. dir. Dil insanın dünya haqqında biliklərini özündə saxlayır və onların şüurda necə təmsil olunduğunu əks etdirir" [2, s.38].

Onomastik vahidlər təkcə adlar və obyektlər, obyektiv reallıq hadisələri arasında birbaşa əlaqəni deyil, həm də reallıqlar arasında müxtəlif növ münasibətləri əks etdirir. Əslində dilçiliyin bir bölməsi olan söz yaradıcılığının ən sıx bağlı olduğu bölmə məhz onomastikadır. Çünki söz yaradıcılığı yeni sözlərin yaranmasına xidmət edir, əşya və anlayışları adlandırır. Onomasaloğiya termininin semantikasında da məhz adlandırma, sayma, təyin etmə anlayışları dayanır. Söz yaradıcılığı təyinat, apelyativ və onomastik nominasiya elmi qəbul edilir. Beləliklə söz yaradıcılığı anlayışı öz içərisində həm apelyativ, həm onomastik leksikanı əhatə edir:

***SÖZ YARADICILIĞI***

*apelyativ leksika* *onomastik leksika*

Digər dillərdə onomastik vahidlərin sözyaratma xüsusiyyətləri müxtəlif leksikoqrafik əsərlrədə əks olunmuşdur. Azərbaycan dilçiliyində isə belə bir praktik əsərə rast gəlinmir. Məsələn, rus dilçiliyində xüsusi adların sözyaradıcı qrupların tərtibi prosesinə cəlb edilməsi toponimikadan [10] başlamış və antroponimlərə qədər [12] davam etdirilmişdir. Sonuncuda sinxron morfoderivasiya təhlilinin obyekti olan ayrı-ayrı dillərin (antroponimlərin qeyri-rəsmi formaları) materiallarından istifadə etmişdir. Tədqiqatın sərhədlərinin genişləndirilməsi slavyan şəxs adlarının qruplarının tərtibinə səbəb oldu [5;6;7;8]. Hazırda regional Kuban soyadlarının sözyaradıcı qruplarının yaradılması istiqamətində işlər aparılır [9, s.207]. Lakin Azərbaycan dilçiliyində belə leksikoqrafik əsərlərin yazılmasına ehtiyac vardır. Antroponimlərdən sözyaradıcı soyad qruplarının konstruksiyası tədqiqatı bir tərəfdən dil diaxroniyasına, digər tərəfdən isə proqnozlaşdırmaya çevirir.

İlkin daxili formaların tədqiqində birinci istiqamət müasir leksik sistemdə etimoloji baxımdan

qohum vahidlərə malik olan, məna, fonetik görünüş, morfemik quruluş, əlaqələr baxımından onlardan çox uzaq olan etimonlar qruplarının müəyyənləşdirilməsinə gətirib çıxarır.

Sözün müasir lüğət üçün etimonu kimi kvalifikasiyasının retrospektiv xronoloji həddi" problemi [5, s. 184-185] burada Azərbaycan dilinin sinxron kəsişməsində söz yaradıcılığı yuvasının komponentlərinə qoyulan müəyyən tələblərdən uzaq, dərin diaxroniyanın, etimologiyanın xeyrinə həll olunur.

İkinci xətt - proqnostika xəttidir. Sözyaradıcılığı sisteminin potensial imkanlarının öyrənilməsi son zamanlar fəal şəkildə inkişaf edir.

"İnsan anadan olan andan daha doğrusu, özünün dərk edəndən ətraf aləmi qavrayır, əşyaları tanımağı öyrənir, onları bir-biri ilə tutşdururu, müqayisə edir, ümumiləşdirmə aparır, çox sayda informasiyanı təhlil edib yadda saxlamağı dili vasitəsilə öz qavrama fəaliyyətinin nəticələrini ifadə etməyi öyrənir. Nəticədə insanda ümumi anlayışlar formalaşır. Sonralar bu anlayışlar dünya haqqında biliklər sistemində birləşir, bu da dünyanın mənzərəsi adlanır" [4, s.39].

Zənnimizcə, onomastik vahidlər içərisində koqnitivliyin ən bariz şəkildə əks olunduğu dil vahidləri məhz toponimlər-yer adlarıdır. Çünki koqnitiv dilçilikdə "Məkan" anlayışı ayrıca bir konsept kimi reallaşır.

Onomastik söz yaradıcılığı haqqında olan tədqiqatlarda müəlliflər onimlərin yaranmasında iştirak edən leksik vahidləri ayrı ayrılıqda izah edərək belə nəticəyə gəlirlər ki, bu prosesdə dilin, demək olar ki, bütün sözlərindən istifadə olunur. Həmin əsərlərdə onimləşmə, transonimləşmə, eləcə də deonimləşmə prosesləri ilə bağlı fikirlər irəli sürülür, antroponimlərin, toponimlərin yaranma yolları, leksik-semantik əsası da ətraflı təhlil edilir [1, s.21]. Azərbaycan dilindəki hər bir onomastik vahid hər hansı bir söz yartama üsulunun məhsulu kimi meydana çıxır. Dilimizdə eyni sözün təkrarı vasitəsilə yaranan yer adları mövcuddur. Əslində bu yer adları dildəki reduplikasiya adlanan sözyaratma üsulunun nəticəsində əmələ gəlir. Dildəki emosionallıq, intensivlik, ekspressivlik "Mormor, Tərtər, Xalxal, Qarqar" kimi onomastik vahidlərdə reallaşır. "Türk dillərində də reduplikasiya sözyaratma üsulu kimi qəbul olunur. Reduplikasiya üsulu ilə əmələ gələn leksik vahidlərə yalnız ədəbi dillərdə deyil, türk dillərinin müxtəlif dialekt və şivələrində də rast gəlinir. Reduplikasiya türk dillərində çoxluq, ardıcıllıq-çoxalma, oxşarlıq, məhdudlaşdırma, azaltma, dərəcələndirmə, təkrar, predikativləşdirmə semantikasını bildirir. Reduplikasiya üsulu ilə bir əsasın müəyyən bir hissəsi və ya hamısı təkrarlanır. Beləliklə, yeni semantikalı leksik vahid yaranır" [3, s.45]. Reduplikasiya üsulu ilə yeni onomastik vahidlərin yaranması dilin inkişafının ilkin mərhələlərinə aiddir.

R. Həbibi bildiriri ki, "Onomastik nominasiya nəzəriyyəsində iki amil diqqət mərkəzində durur: 1) adın mənasının ilk dəfə müəyyənləşdirilməsi və insan şüurunda təsbit edilməsi; 2)dil vahidlərinin nominativ mənasının inkişafı prosesi. Nominasiya nəzəriyyəsi, əsasən, obyektlərin öz adını necə almasını nəzərdən keçirir. Bu nəzəriyyə üçün təkcə müəyyən gerçəklik fraqmentlərinin necə ad alması və hansı dil vasitələrinin köməyi ilə realizə olunması deyil, həm də nə üçün adlandırmada məhz bu fraqmentin, obyektin, varlığın seçilməsi və hansı çoxsaylı əlamətlərin əsas götürülməsi, eləcə də söz yaradıcılığının bir çox məlumatlarının nəzərə alınması vacibdir. Nominasiya aktı müəyyən formal əməliyyatın və ya formal vasitənin istifadəsini nəzərdə tutur" [1, s.26]. Hər bir yaranan yeni ad-yeni onomastik vahid insanın təfəkkür süzgəcindən keçdikdən sonra dildə bərqərar olur. Qədim türk dilində "qara" böyük, uca, yüksək, geniş" mənalarını ehtiva etmişdir. Qədim türklər-azərbaycanlılar *qara* leksik vahidini tayfa, xalq, bağ, məkan, yurd adlarının qarşısına əlavə etməklə toponimlər yaramışlar. Türklərin təfəkküründə böyüklük yalnız və yalnız müsbət anlayışda işlənmişdir. Bu da toponimlərdə əksini tapmışdır.

**Nəticə**

Beləliklə *söz yaradıcılığı onomastika koqnitiv dilçilik* terminləri bir-birləri ilə o qədər əlaqəli və bağlıdılar ki, onları bir-birindən ayrılıqda öyrənmək mümkün deyil.

**ƏDƏBİYYAT**

1. Həbibi R. Həbibi R. Azərbaycan tətbiqi onomastikası: Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı, Bakı – 2021
2. Mahmudova Q. Müasir türk dillərində düzəltmə söz. Bakı: Elm və təhsil, 2022, 335 s.

3. Mahmudova Q. Müasir türk dillərində söz yaradıcılığı: filologiya elmlər doktorluğu dissertasiyasının avtoreferatı. Bakı: 2023
4. Rəcəbli Ə Koqnitiv dilçilik. Bakı: Elm və təhsil, 2021
5. Аркадьева, Т. Г. Границы этимонов в современном русском языке // Русистика: Лингвистическая парадигма конца XX века: Сборник статей в честь профессора С. Г. Ильенко / РГПУ им. А. И. Герцена. – Филологический факультет. – СПб.: Изд-во С.-Петербургского ун-та, 1998. – С. 184– 191;
6. Бояринова Л. З. Вариантообразующая парадигма как единица словообразовательного гнезда личных имен // Культура. Филология. Методика. − Смоленск, 2002. − Вып. 2. − С. 121–128.
7. Бояринова, Л. З. Межуровневые отношения в структуре словообразовательного гнезда личных имен // Разноуровневые характеристики лексических единиц. − Смоленск, 2001. Вып. 42. − С. 184−188;
8. Бояринова, Л. З. Словообразовательное гнездо славянских женских личных имен // Проблемы региональной ономастики: Материалы второй межвузовской научно практической конференции. – Майкоп: Изд-во Адыг. гос. ун-та, 2000. – С. 42–45;
9. Копоть, Л. В. Варианты фамилий с одним корнем как реализация словообразовательного потенциала // Проблемы региональной ономастики: Материалы 4-ой всероссийской научной конференции. Майкоп: Изд-во Адыг. гос. ун-та, 2006. – С. 206–208.
10. Подольская Н. В. Словарь русской ономастической терминологии. – М.: Наука, 1988
11. Робустова В. В. К когнитивной ономастике // Вестник Московского университета. Серия19. 2014. №1. С.41–49.
12. Тихонов, А. Н., Бояринова, Л. З., Рыжкова, А. Г. Словарь русских личных имен. – М.: Рус. яз., 1995.

***AMEA, Nəsimi adına Dilçilik İnstitutu, doktorant***
***E-mail:abbaslivalide97@gmail.com***

**Valida Abbasbeyli**

## ONOMASTIC UNITS IN WORD FORMATION OF THE AZERBAIJANI LANGUAGE AND THEIR COGNITIVE-FUNCTIONAL CHARACTERISTICS

In linguistics, the cognitive approach continues to maintain its extreme popularity, leading to an increase in the number of studies using cognitive methods. Although any linguistic material has not been studied from the point of view of cognitive science, in most cases this is justified by the inability to reveal certain aspects using traditional methods of linguistic analysis.

The cognitive approach to proper names is no exception. Onomastics has been and is being studied by methods of traditional linguistics for many years. However, in recent years, the number of research papers reflecting the cognitive approach to onomastics has increased. As a result of this activity of scientists, the problems of nomination and name began to be studied using the methods of cognitive linguistics. Research in recent years by scientists shows the features of the cognitive-functional placement of onomastic units in discourse and determines the prospects for onomastic research within the framework of the cognitive-functional approach.

The article talks about onomastic units in the word creation of the Azerbaijani language and the cognitive approach to them.

**Keywords:** *word creation, cognitive, onomastics, approach, traditional.*

**Валида Аббасбейли**

## ОНОМАСТИЧЕСКИЕ ЕДИНИЦЫ В СЛОВООБРАЗОВАНИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА И ИХ КОГНИТИВНО-ФУНКЦИОНАЛЬНЫЕ ХАРАКТЕРИСТИКИ

В лингвистике когнитивный подход продолжает сохранять свою чрезвычайную популярность, что приводит к увеличению количества исследований с использованием когнитивных методов. Хотя какой-либо языковой материал не изучался с точки зрения когнитивистики, в большинстве случаев это оправдано невозможностью раскрыть те или иные аспекты традиционными методами лингвистического анализа.

Когнитивный подход к именам собственным не является исключением. Ономастика изучалась и изучается методами традиционного языкознания на протяжении многих лет. Однако в последние годы увеличилось количество научно-исследовательских работ, отражающих когнитивный подход к ономастике. В результате этой деятельности ученых проблемы номинации и имени стали изучаться методами когнитивной лингвистики. Исследования последних лет ученых показывают особенности когнитивно-функционального размещения ономастических единиц в дискурсе и определяют перспективы ономастических исследований в рамках когнитивно-функционального подхода.

В статье говорится об ономастических единицах в словотворчестве азербайджанского языка и когнитивном подходе к ним.

**Ключевые слова:** *словотворчество, когнитивный, ономастика, подход, традиционный.*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 19.10.2024**
**Son daxilolma tarixi:09.11.2024**